www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın təqdimatında

# HEYDƏR ƏLİYEV ELMİ MİRAS



## Elmi-kütləvi materiallar toplusu

E-nəşr (III Cild)

2026

E-kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

YENİ YAZARLAR VƏ SƏNƏTÇİLƏR İCTİMAİ BİRLİYİ

# HEYDƏR ƏLİYEV
# ƏBƏDİ MİRAS




**III CİLD**
**Bakı – 2026**

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi**

**www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında**

***“Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” kulturoloji layihə silsiləsindən***

**YYSİB-nin kulturoloji e-kitablar seriyası**

**Elektron kitab N 15 (06 - 2026)**

**Bu elektron nəşrlər Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə dəstəyi verdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən real-laşdırılan, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın texniki-yaradıcı yardımıyla icra edilən, “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” kulturoloji layihə çərçivəsində hazır-lanaraq yayımlanır.**

**Kreativ-bədii layihənin maliyyələşdirən qurum:**

**Azərbaycan Respublikasının Gənclər Fondu**

**http://youthfoundation.az**

Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:

https://kitabxana.net/e-library.php?cate=206

Rəsmi FB səhifəmiz:

https://www.facebook.com/intellektualesger/

QEYD: Bu e-nəşr Azərbaycan Respublikasının Gənclər Fondunun maliyyə yardımı ilə hazırlanmışdır.

Fond nəşrin məzmununa görə məsuliyyət daşımır.

Elmi-kütləvi toplu

**Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb**

**YYSİB və Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2026**

**Virtual redaktoru və e-nəşrə hazırlayanı:**

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq, Prezident təqaüdçüsü**

Elektron kitabın bu növbəti cildinə ölkəmizin yeni dövlətçilik ənənələrini yaratmış, həyatını vətəninin azadlığına, bütövlüyünə, iqtisadi-mədəni inkişafına həsr etmiş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli siyasi-dövlətçilik fəaliyyətinin elmi tərəflərinə həsr olunub.

"Heydər Əliyev. Elmi miras": coxcildli toplunun bu yeni - III cildində dahi tarixi şəxsiyyət, görkəmli siyasətçi, Ulu Öndərimiz Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin elmi tərəfləri araşdırılaraq yeni nəsil nümayəndələrinin diqqətinə çatdırılır.

***YENİ YAZARLAR VƏ SƏNƏTÇİLƏR İCTİMAİ BİRLİYİ***
***ASSOCIATION OF NEW WRITERS AND ARTIST***

*"**İntellektual, Kulturoloji** və Bədii Ədəbiyyat Kitabxanası" **№ 27***

**Redaksiya heyəti:** Aydın Xan Əbilov, Adəm İsmayıl Bakuvi, Leyla Məcidova, Ramal Əliyev, Məhəmməd Məmmədov, Nizami Şıxiyev

**Bədii redaktor:** Aydın Xan Əbilov, YYSİB sədri, yazıçı-kulturoloq

**«HEYDƏR ƏLİYEV. ƏBƏDİ MİRAS». III cild, YYSİB, Bakı-2026.**

**©YYSQ - 2026**

**DİQQƏT!**

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

# HEYDƏR ƏLİYEV



# M Ə Q A L Ə L Ə R

# Heydər Əliyev və Azərbaycan Milli ideologiyasının formalşması

Xalqın vahid məqsəd uğrunda birləşməsi üçün zəruri olan milli ideologiya böyük siyasi liderlərin dövlətçilik konsepsiyasında real əsaslarını tapır. Milli ideologiya milli-mənəvi dəyərlər sisteminin əsas potensiyasının real siyasi məqsədlər naminə səfərbər edilməsidir. Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə tarixi ənənə və təməl üzərində milli ideologiyanın formalaşması və inkişafı naminə misilsiz xidmətlər göstərmiş, milli düşüncənin düzgün məcrada inkişafına nail olmuş, xalqa məxsus ənənə və dəyərlər sistemini qloballaşmanın sərt təsirlərindən qorumağı bacarmışdır.

Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Ümummilli lider azərbaycançılıq ideologiyasında vahid polietnik millətin Azərbaycan dövlətçiliyinin yaradılmasına dair maraqlarının ümumiliyi, demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizəsinin məqsədləri öz əksini tapmışdır.

Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ulu öndər Heydər Əliyevin 90 illik yubileyinin

ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamda qeyd olunur: "Xalqımızın ümummilli liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyevin fəaliyyətinin nəticəsidir".

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. O, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla,

strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapır.

Xalqın mövcudluğunun əsas göstəricisi olan milli-mənəvi dəyərlər onun ən qiymətli sərvətidir. Hər bir xalq milli mənəvi dəyərlər sisteminə malikdir. Bu milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir.

"Mənəvi dəyərlər" insanı cəmiyyətdə formalaşdıran, inkişafa kömək edən davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xysusiyyətlər yaranır. Milli-mənəvi dəyərlər və Azərbaycançılıq – bu sözlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu, həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli-mənəvi dəyərlərin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarandı. Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə

hazır olması, xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir.

Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə (bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitet).

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

1991-ci il dekabrın 25-də prezident Ayaz Mütəllibov "Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında" 33 saylı fərman imzalayıb. Bu fərmanla Azərbaycanda kirill əlifbasına keçidlə bağlı 11 iyul 1939-cu il Qanunu qüvvədən düşmüş elan edilib və 40-ci ilə qədər istifadə olunan latın qrafikalı Azərbaycan əlifbasının bəzi dəyişikliklərlə bərpası təsdiqlənib.

1992-ci il sentyabrın 1-dən prezident Əbülfəz Elçibəyin birbaşa nəzarəti ilə 33 saylı prezident fərmanının tətbiqi

gerçəkləşib və latın qrafikalı Azərbaycan əlifbasının 1-ci siniflərdə tədrisinə start verilib.

Prezident Heydər Əliyevin 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı ilə 2001-ci il avqustun 1-dən Azərbaycanda bütün media və kütləvi nəşrlərin latin qrafikalı əlifbaya keçməsi rəsmiləşdirilib. 4 iyul 2004-cü ildə Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının tərkibinin təsdiqi haqqında sərəncam verən Heydər Əliyev həmin il avqustun 9-da imzaladığı fərmanla "Azərbaycan Dili və Əlifbası Günü"nü təsis edib. Həmin fərmana uyğun olaraq, hər il avqustun 1-də "Azərbaycan Dili və Əlifbası Günü" qeyd edilir.
Bu tarixdən etibarən Azərbaycan dövlət dilinin tətbiqinin genişləndirilməsi sahəsində hüquqi baza təkmilləşdirilib və geniş praktik addımlar atılıb:

1. Dövlət Dili haqqında Azərbaycan Pespublikasının Qanunu (H.Əliyev, 30 sentyabr 2002-ci il );

2. Dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (H.Əliyev, 2 yanvar 2003-cü il);

3. Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında fərman (İ.Əliyev, 12 yanvar 2004-cü il );

4. Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi barədə fərman ( İ.Əliyev, 12 yanvar 2004-cü il);

5. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbycan Respublikası Prezidentinin Sərəncamı (İ.Əliyev, 23 may 2012-ci il);

6. Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun maddi –texniki bazasının gücləndirilməsi haqqında qərar (İ.Əliyev, 29 may 2012-ci il). Həmin qərarla Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Milli Elmlər Akademiyasına 2 milyon manat vəsait ayırılıb;

7. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq olunması barədə Azərbaycan Respublikasının Sərəncamı (İ.Əliyev, 9 aprel 2013).

Bu gün Azərbaycan Respublikasında din – dövlət münasibətləri Azərbaycan Respublikasının Konstitusiyası,

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının qanunu və bu qanuna edilmiş dəyişikliklər və əlavələr, habelə digər normativ aktlara əsasən tənzim edilir. Konstitusiyanın 7-ci maddəsində göstərilir: "Azərbaycan demokratik, hüquqi, dünyəvi, unitar respublikadır". Konstitusiyanın 18-ci maddəsi bildirir ki: "Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir. Insane ləyaqətini alçaldan, insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır". Konstitusiyanın 48-ci maddəsi vicdan azdlığı prinsipini şərh edir: "Hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və başqalarıilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dinə münasibətilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi, ictimai qaydanı pozmursa və ya ictimai-əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və əqidə hüququ pozuntusuna bəraət qazandırmır".

1992-ci ilin avqustunda qəbul olunmuş "Dini etiqad azdlığı haqqında" Azərbaycan Respublikasının qanunu ölkə vətəndaşlarının dinə öz münasibətini bildirmək və ifadə etmək azadlığını təsbit edir, onların dinə münasibətlərindən asılı olmayaraq, hüquq bərabərliyini təmin edir. Qanun müstəqil Azərbaycan Respublikasında dini qurum və

icmalarım fəaliyyətinə, dini etiqad azadlığı ilə əlaqədar vətəndaşların və dini qurumların hüquqlarına, dini qurumıarın dövlət orqanları ilə münasibıətlərinə dair məsələlərin tənzimlənməsi üçün əsas yaradır.

**Cümşüd Nuriyev,**

**Siyasi elmlər doktoru**

# Heydər Əliyev: xalqa həsr olunan işıqlı ömür...

1923-cü il mayın 10-da, gözəl bir yaz günündə Azərbaycanının qədim Naxçıvan şəhərində bir körpə dünyaya göz açdı...

Qədəmləri ilə ailəyə sevinc bəxş edən bu körpənin adını Heydər qoydular. Balaca Heydərgilin səkkiz uşaqdan ibarət ailəsində o, dördüncü övlad idi.

Anasi İzzət xanim evdar qadın, atası Əlirzə Əliyev isə dəmir yolunda işləyirdi. Yaşıdlarından hər mənada fərqlənən balaca Heydərin maraq dairəsi hələ uşaqlıqdan çox geniş olmuşdur. O, Azərbaycan, rus, türk yazıçılarının kitablarını oxuyur, futbol, voleybol oynamağı, üzgüçülüyü, xizək sürməyi, Naxçıvanda göstərilən sənədli və bədii filmlərə baxmağı çox xoşlayırdı.

Uşaqlıqan elmə, ədəbiyyata, incəsənətə, xüsusən rəssamlığada önəmli marağı vardı. Bu maraq isə balaca Heydəri hələ uşaqlıqdan peşəkar sənətə doğru aparırdı. O, Naxçıvanda fəaliyyət göstərən teatrın dekorasiyalarını hazırlayar, afişaların dəvətnamələrin yazılmasında iştirak edirdi.

Ötən əsrin 30-cü illərin əvvəllərində Naxçıvan şəhərində məşhur olan Telman adına klubda uşaq teatrı fəaliyyətə başlayandan sonra unikal yaddaşa malik Heydərin qeyri-adi aktyorluq istedadıda üzə çıxdı.

Yeddi yaşlı Heydər 1 saylı Beynəlmiləl məktəbinə daxil oldu. Onun uşaqlıqdan arzusu müəllim olmaq idi. Yeddincici sinifi bitirdikdən sonra bu fitri istedadlı yeniyetmə Naxçıvan Pedaqoji Texnikumunun müəllimləri hazırlayan şöbəsinə daxil oldu...

Uşaqlar, baxın, bu şəkildə ulu öndər Heydər Əliyev texnikumdakı təhsilini bitirəndən sonra ona verilən attestatı görürsünüz. Gördüyünüz kimi, onun bütün qiymətləri "əla" olub.

Pedaqoji texnikumunu uğurla bitirən 16 yaşlı Heydər çoxdankı arzusunu gerçəkləşdirmək, peşəkar memar olmaq, Azərbaycanın paytaxtı gözəl binalar tikmək niyyəti ilə Bakıya gəldi.

Azərbaycan Sənaye İnstitutuna sənədlərini verdi: qəbul üçün 13 imtahanın hamısından "əla" qiymət alan Heydər Əliyev memarlıq fakultəsinə daxil oldu. O zaman keçmiş SSRİ-də vəziyyət çox ağır idi. O, burada bir il oxuyub təhsilini yarımçıq qoymlı oldu, çünki II Dünya müharibəsi başladı.

Naxçıvana qayıdan Heydər Əliyev bir müddət sonra rəsmi qurumlara işləmək üçün çağrıldı və savadlı kadr kimi DTK-da işə dəvət edildi.

(Uşaqlar, heç bilirsiz, DTK nədir? DTK - Dövlət Təhlükəsizlik Komitəsidir. Orada işləyən insanlar başqa ölkələrdən respublikamıza düşmən kimi gələn, dövlət sirlərini oğurlamaq istəyən casuslardan, eləcə də dövlətçiliyimizə qəsd etmək fikrinə düşmüş qüvvələrdən hamımızı qoruyur.)

Azərbaycanlıların az sayda işlədiyi bu ciddi dövlət qurumunda Heydər Əliyev 25 il işləyir. Burada çlışdığı müddətdə o, bir rəsmi rütbələr alıb.

Onun rütbələri: 1944-ci ildə - leytenant, 1948-ci ildə baş leytenant, 1954-cü il - kapitan, 1965-ci il – polkovnik, 1967-ci ildə isə general-mayor.

Heydər Əliyev keçmiş SSRİ DTK-da general-mayor rütbəsini almış ilk azərbaycanlı olmuşdur. Məhz onun rəhbərliyi altında Azərbaycan SSR-nin DTK-sində çalışanların böyük əksəriyyəti azərbaycanlılar idi.

Hələ burada işlərkən, Heydər Əliyev seçib-sevdiyi, ürəkdən bağlandığı Zərifə xanım Əliyevayla ailə həyatı qurdu. Zərifə xanım Əliyeva insanlarımıza təmənnasız xidmət edən savadlı göz həkimi olmaqla yanaşı, sonralar görkəmli oftalmoloq alim kimi də yaxşı tanınır.

Qarşılıqlı sevgi üzərində qurulan bu saf Azərbaycan ailəsində  iki övlad dünyaya göz açmışdır: Sevil və İlham Əliyevlər.

Əziz uşaqlar, bildiyiniz kimi, keçmişdə Sovet Sosialist Respublikaları İttifaqı dövləti mövcud idi. Vaxtilə dünyaya hegemonluq edən bu nəhəng dövlətin tərkibinə 15 respublika daxil idi. O respublikarın biri də Azərbaycan idi. Hər bir respublikanın rəhbərliyində kommunist partiyasının mərkəzi komitəsinin birinci katib dururdu. Heydər Əliyev 1969-cu ildə Azərbaycanın birinci katibi seçilmişdir. Bu tarixi şəxsiyyətin ilk dəfə respublikamıza rəhbərlik etdiyi 14 ilə yaxın bu müddətdə bütün sahələrdə böyük uğurlar əldə edildi. Yeni zavodlar, fabriklər, elektrik stansiyaları, məktəblər, kitabxanalar, muzeylər, mədəniyyət evləri açıldı. Uşaqlar, hər bir dövlətin başçısı olduğu kimi, SSRİ dövlətinin də liderləri var idi. Məsələn, Lenin, Stalin, Brejnev və başqaları. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. Bu isə

o demək idi ki, tanınmışdövlət xadimi olaraq Heydər Əliyev sabiq SSRİ əsas rəbərlərindən birinə çevrildi.

İstedadı, dərin zəkası, zəhmətkeşliyi, analitik düşüncə qabiliyyəti və intellektual səvviyəsi ilə hər kəsi heyran edən Heydər Əliyev əhbər vəzifəyə irəli çəkiləndən sonra Moskvada daimi işləməyə başlayır.

Moskvada işlədiyi illər ərzində o bir çox mühum dövlət işlərinin məsuliyyətini daşıyırdı. Amma yenidənqurma adı altında SSRİ dağıdılması prosesinə start veriləndə Heydər Əliyev tutduğu bütün dövlət və ictimai vəzifələrdən imtina etməyə gərar verir. Səhhəti ilə əlaqədar o, Moskvada yaşamağa davam edirdi.

1990-cı il yanvarın 20-də Bakıya rus qoşunu yeridilir və paytaxtımızda qırğın törədilərək 134 dinc vətəndaş öldürülür, 600-dən çox amülki şəxs isə yaralanır. Uşaqlar, siz bilirsiniz ki, Qanlı 20 yanvar hadisələri bizim yaddaşımızda və tariximizdə əbədi iz qoyub. Heydər Əliyev 20 yanvar hadisəndən bir gün sonra bütün təhdid, qadağa və təhlükələrə baxmayaraq, Moskvada ictimaiyyət, mətbuat nümayəndələri və xarici jurnalistlər qarşısında çıxış edir. Millətinin ağır günündə onun təəsübkeşliyini çəkən bu böyük şəxsiyyət Bakıdakı qanlı qırğını törədədənləri, o hadisələrdə günahkar olan insanlara kəskin sözlərini deyir və onları günahlandırır. Ondan sonra o, bütün qadağaları adlayaraq vətəninə qayıdır. Həmin dövrdə ölkəmiz ağır günlər yaşayırdı.  O ağır günlərdən biri də 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı faciəsi idi.

Uşaqlar, erməni əsgərləri Qarabağda yerləşən qədim Xocalı şəhərimizə hücüm edərək 613 nəfəri öldürmüşdülər. Onların arasında uşaqlar, qadınlar və qocalar çoxluq təşkil edirdi. Bir çox uşaq isə anasız və atasız qaldı.

Uşaqlar, bu çətin günlərdən sonra ölkəmizin bir tarixi liderə, rəhbərliyi bacaran şəxsiyyətə böyük ehtiyacı vardı. Beləcə Azərbaycanımızı bu ağır günlərdən xilas edən məhz xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gələn ölməz ulu liderimiz Heydər Əliyev oldu.

Proseslər öz axarına düşəndən sonra o, 1993-cü ildə keçirilən demokratik seçkilərdə ibirinci dəfə, 1998-ci ildə isə ikinci dəfə müstəqil Azərbaycanın Respublikasının prezidenti seçildi.

Bütövlüklə Heydər Əliyev 10 il Azərbaycanımızın lider rəbəri oldu. Bu 10 ildə Azərbaycan güclü bir ölkəyə çevrildi və liderimizin güclü iradəsi, dövlətçilik bacarığı sayəsində ölkəmizi bütün dünya tanıdı. Çox əfsuslar olsun ki, 2003-cü ildə dekabrın 12-də xalqımız öz liderini - Heydər babamızı itirdik.

Fəxr edirik ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirik ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə, Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz.

# Dahi Lider Heydər Əliyev müasir gənclər siyasətinin banisidir

***Ümummilli Lider Heydər Əliyev: Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.***

Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir. Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan

müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir.

Dünya xalqlarının taleyində həmişə onun xilaskarı kimi çıxış edən şəxsiyyətlər olub. Azərbaycan xalqının çox ağır dövründə, bir millət, bir dövlət kimi tarixdən silinmək təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda Heydər Əliyev hakimiyyətə gələrək xilaskarlıq missiyasını yerinə yetirdi. Minnətdar Azərbaycan xalqı onun böyük xidmətlərini heç vaxt unutmayıb və unutmayacaq. Bütün Azərbaycan vətəndaşları, xüsusən də gənclər onun xatirəsini dərin sevgi və ehtiramla yad edirlər. Gəncləri vurğulamağımızın səbəbi odur ki, onlar çox gözəl başa düşürlər ki, Azərbaycanın bugünkü inkişafı Heydər Əliyevin çətin sınaqlardan uğurla çıxan dövlətçilik siyasətinin nəticəsidir. Müasir Azərbaycan gənclərinin Azərbaycanı dünya ölkələri ilə müqayisə etmək imkanı var. Gənclərimiz müstəqilliyimizin qüdrətinə, iqtisadi və siyasi inkişafımızın möhkəm təməl daşlarına söykəndiyinə çox əmindirlər. Ulu öndər Heydər Əliyev gənclərin təkcə bilik və intellektual bacarıqlarının inkişaf etdirilməsi deyil, həm də fiziki sağlamlığının qayğısına qalırdı. Bunun üçün o, Azərbaycanda idmanın və bədən

tərbiyəsinin inkişafına, idman komplekslərinin tikintisinə, idmançılarımızın Olimpiya Oyunlarında və dünya çempionatlarında iştirakına şəxsən nəzarət edirdi. Təbii ki, bu baxımdan bizim - gənclərin üzərinə böyük məsuliyyət düşür: ulu öndər Heydər Əliyevin milli dövlətçiliyin və müstəqilliyin möhkəmləndirilməsi və inkişafı, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ideyalarına sədaqətlə davam etmək. Azərbaycanın bu günü və gələcək inkişafına töhfəmizi, enerjimizi, bilik və bacarığımızı İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətini dəstəkləmək üçün sərf edirik.

Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atmış olur. Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı anlayan və bunun həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir insan var idisə

o da Heydər Əliyev idi. Ümummilli Liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi. Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq.

Ümummilli Lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edib. Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövürlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər açılmış, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və qayğısı sayəsində o zamanlar Sovetlər İttifaqının 50-

dən artıq iri şəhərinin 170 nüfuzlu ali məktəbində bütövlükdə 80-dək sahəni əhatə edən 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına, yüksək ixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaradılmışdır. Azərbaycan gənclərinin 1 forumunda bu barədə danışan ölkə rəhbəri demişdir: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq.

Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin aparıcı təbəqəsi gənclərdirsə, deməli, inkişaf və inteqrasiya məhz onlarla bir addımlayır. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir. Bununla da əslində özünün xoşbəxt və firavan gələcəyinin təmin olunması istiqamətində mühüm addımlar atmış olur. Bu məlum həqiqəti Azərbaycanda hamıdan yaxşı anlayan və bunun həyata keçirilməsi üçün lazımı tədbirləri görən yeganə bir insan var idisə o da Heydər Əliyev idi.

Ümummilli Liderimiz Heydər Əliyev ölkədə gedən demokratik islahatlara və insan hüquqlarının

qorunmasına həmişə diqqət yetirirdi. İctimai-siyasi, mədəni həyatımızın müxtəlif sahələrində sistemli islahatlar aparan böyük öndərimiz bütün bu proseslərdə gənclərin roluna həmişə xüsusi fikir verirdi. Müxtəlif qurumlarda, dövlət idarələrində, siyasi və iqtisadi arenalarda gənclərin fəal iştirakını təmin edirdi.

Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərin rolu danılmazdır. Azərbaycanın tarixinə nəzər salsaq, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq.

Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm". Bu həmin illərin ən böyük nailiyyətlərindən idi. Dövlət gənclər siyasəti Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq həmişə aparıcı istiqamətlərdən biri olmuşdur. Qeyd etdiyimiz kimi, hələ Sovet hakimiyyəti illərində Ümummilli Liderimiz yüzlərlə Azərbaycan gəncinin ittifaqın bir çox böyük və mərkəzi şəhərlərində təhsil almalarına şərait yaratmışdır. Bu gənclər keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə müxtəlif ixtisaslar üzrə ali təhsil almağa

göndərilir və savadlı kadr kimi vətənə qayıdaraq fəaliyyət göstərməyə başlayırdılar. Həmin gənclərin böyük bir qismi bu gün müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğunda yaxından iştirak edir, hüquq-mühafizə orqanlarında rəhbər vəzifələrdə çalışır, elmimizin, səhiyyəmizin, mədəniyyətimizin inkişafında əvəzsiz xidmət göstərirlər. Ulu öndərimiz savadı, qabiliyyəti, istedadı ilə seçilən gənclərə qayğı və diqqət göstərməyi bacarırdı. Şübhəsiz ki, bu gənclərin bir çoxunu özü seçir, onların qabiliyyətini və biliyini sınaqdan çıxarandan sonra Moskvaya, Leninqrada oxumağa göndərirdi. Bu gənclər maddi cəhətdən təmin edilir, yüksək, mükəmml təhsil almalarına hər cür şərait yaradılırdı. Buna görə də Heydər Əliyevin 2-ci dəfə hakimiyyətə qaydışını ən çox alqışlayanlar elə gənclərin özü idi. Heydər Əliyev gənclərə arxalandığı kimi, gənclərdə onu böyük bir lider, əvəzolunmaz tarixi şəxsiyyət, milli dövlət quruculuğumuzun banisi kimi qəbul edirdilər.

Düzdür, 1988-ci ildən 1993-cü ilə qədər ölkə gəncliyi ictimai-siyasi proseslərdən kənarda qalmışdı, onun potensialı lazımınca qiymətləndirilmirdi. Ölkədə gənclər siyasəti demək olar ki, unudulmuşdu. Həmin dövürdə qeyri-sağlam ictimai-siyasi vəziyyət təhsil

sisteminin iflic hala düşməsinə gətirib çıxarmış gəncliyin başlı-başına buraxılması onlarda sabaha inam hissinin itirilməsinə səbəb olmuşdu. Müxtəlif qrupların hakimiyyət uğrunda çəkişmələrində yeniyetmələrin potensialından sui-istifadə halları gəncliyin mənəvi-psixoloji böhran vəziyyətinə düşməsi ilə nəticələnmişdi. Lakin, Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsindən sonra bu vəziyyət kökündən dəyişdi. Belə bir məqamda hakimiyyətə qayıdan Ümummilli Liderimiz Heydər Əliyev ilk görüşünün məhz gənclərlə keçirdi. 22 sentyabr 1993-cü ildə Respublika Ali Sovetində gənclərin nümayəndələri ilə görüşündəki çıxışında onlara dərin inam bəslədiyini ifadə etdi. Onun "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" -sözləri hər kəsin həyat devizinə çevrildi.

Ulu öndərimiz Heydər Əliyevin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edirdi. Heç də təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşır, onların problemlərini həll etməyə çalışırdı.

Gənclərin ictimai-siyasi həyatda fəallığını artırmaq üçün həyata keçirilən Dövlət Proqramının tətbiqi, idarəetmə orqanlarında gənc mütəxəssislərə üstünlük verilməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş gənclər siyasətinin uğurlu nəticəsidir.

Ölkəmizdə gənclərlə iş sahəsində mühüm tədbirlərin gerçəkləşdirilməsi ulu öndərin adı ilə bağlıdır. 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdan Heydər Əliyevin diqqət yetirdiyi mühüm istiqamətlərdən biri də gənclərlə iş olmuşdur. Həyata keçirilən gənclər siyasətinin başlıca məqsədi milli dəyərlərə söykənən, vətəninə, xalqına bağlı olan müasir düşüncəli gənc nəslin formalaşdırılması, bu gəncliyin potensialından dövlətin inkişafı naminə istifadə edilməsidir. Ölkədə demokratik prosesin sürətlənməsi ərəfəsində gənclərin təşkilatlanması məqsədi ilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərman imzalandı. Bununla da dövlətin gənclərlə bağlı siyasəti vahid mərkəzdən idarə olunmağa başladı. Ulu öndərimizin gənclərlə çox saylı görüşü, onlara etdiyi dəyərli tövsiyələr gənclərin ümummilli maraqlar və dövlət mənafeyi ətrafında birləşmələrinə xidmət edirdi.

Bunun məntiqi nəticəsidir ki, 1996-cı ilin 2 fevralında Azərbaycan Gənclərinin Birinci Formu keçirildi. Formda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gəncliyin qarşısında böyük məsuliyyətin dayandığından danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığının vurğuladı. Həmin dövürdə gənclərin problemlərinin həllini təmin edən fərmanların imzalanması, qanunların qəbul edilməsi, gənclərin dövlət quruculuğuna fəal cəlb olunması dövlətin gənclər siyasətinə mühüm töhfə verdi. Bununla da Azərbaycan gəncinin tam hüquqlu vətəndaş kimi öz gələcəyinə sahib çıxması və ona göstərilən ehtimadı doğrultmağa çalışması üçün bütün şərait yaradıldı. Ümummilli Liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin tarix "Azərbaycan gəncləri günü" elan edilmişdir. 1996-2002-ci illərdə qəbul olunmuş "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Dövlət gənclər siyasəti haqqında" qərarların, habelə "Gənc ailə" proqramı, "gənclərdə vətənpərvərlik və vətəndaşlıq hislərinin yüksəldilməsi haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu" dövlət sənədləri bu baxımdan

təqdirə layiqdir. Əlbətdə ki, gəncliyə göstərilən dövlət qayğısı, onlarla bağlı qəbul edilən qərarlar gənc nəslin xoşbəxt gələcəyinə hesablanan addımlar idi. Heydər Əliyevin qaçqın və məcburi köçkün tələbə gənclərə göstərdiyi qayğı onun bütün ölkə vətəndaşları qarşısında göstərdiyi əvəzolunmaz xidmətlərinin tərkib hissəsidir. Fərəh hissi ilə deyə bilərik ki, bu gün də dövlətimiz gənclərə xüsusi diqqət və qayğı göstərir. Ümummilli Liderimiz Heydər Əliyevin gənclər siyasəti onun layiqli davamçısı, dövlət başçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu siyasət idmana göstərilən dövlət qayğısı ilə də öz əksini tapır. Təbii ki, bu yönümlü siyasət Azərbaycanın milli genefondunun qorunması, habelə gəncləri vətənpərvər ruhda tərbiyə etmək zərurətindən meydana gəlmişdir.

Gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Dövlət başçısının ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Azərbaycanın müxtəlif bölgələrində olimpiya komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi buna əyani sübutdur.

Hələ 1997-ci ildə MOK-nin prezidenti seçilən cənab İlham Əliyev Azərbaycanı dünya idman arenasında tanıtmaq məqsədilə ölkədə olimpiya hərəkatının genişlənməsinə xidmət edən siyasətin əsasını qoydu. Qısa müddət ərzində regionlarda 13 olimpiya idman kompleksinin tikilərək istifadəyə verilməsi bu siyasətin uğrundan xəbər verir. Dövlət başçısı İlham Əliyev ölkənin mənafeyi, xalqımızın rifahı naminə gənclərin potensialından tam və düzgün istifadə edilməsi, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçilik sistemində iştirakının gerçəkləşdirilməsi məqsədi ilə 30 avqust 2005-ci il tarixdə “Azərbaycan Gəncliyi Dövlət Proqramının təsdiq edilməsi haqqında” sərəncam imzalamışdır. Sərəncamda Azərbaycanda gənclərlə bağlı dölət siyasətinin başlıca istiqamətləri açıqlanmış, habelə bu təbəqəyə diqqətin artırılması üçün konkrekt tədbirlər hazırlanması və maliyyələşdirilməsi Nazirlər Kobnetinə həvalə olunmuşdur. Ölkədə gənclərin sosial vəziyyətinin yaxşılaşdırılması, dövlət orqanlarında gənclərin üstünlük təşkil etməsi göstərir ki, Prezident İlham Əliyev gənclərlə bağlı siyasətə xüsusi həssalıqla yanaşır.

Azərbaycan Respublikasının “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə” 5 may 2007-ci il tarixli Qanununa əsasən Azərbaycanda gənclər 14–29 yaşlarında hesab edilir. Gənclər bu gün ölkə əhalisinin 28,1 %-ə qədərini təşkil edir. Bu təbəqənin sosial-iqtisadi inkişafı güclü ölkə, parlaq gələcək deməkdir. Ölkənin sosial-iqtisadi inkişafında gənclərin potensialından istifadə etməklə həm gəncləri inkişaf etdirmiş olarıq, həm də ümumi problemlərimiz öz həllini tapar. Bu gün gənclərin peşə hazırlığı, məşğulluğunun təmin olunması, sosial təminatı sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyytının əsaslarına dair biliklərə yiyələnməsi sahəsində tədbirlər həyata keçirilməsi durmadan genişləndirilməlidir. Məlumdur ki, ölkədə fəaliyyət göstərən bazar sturukturları iş təcübəsi olan və bazar iqtisadiyyatı prinsiplərini bilən mütəxəssislər axtarışındadır. İlk növbədə, gənclərin təhsilinə, peşə hazırlığı məsələlərinə böyük diqqət yetirilməlidir. Xüsusilə texniki-peşə təhsili müəssisələrinin kadr hazırlığında mövcud əmək bazarını və ya sahibkarların tələbatları nəzərə alınmalıdır. Son illər ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar öz müsbət nəticəsini versə də, işsizlik problemi aktual olaraq qalır. Çünki, keçid dövrü ilə

əlaqədar olaraq əmək bazarının tələbləri də dəyişir. Artıq dünyada belə bir fikir formalaşıb ki, hər il bilik və bacarıqların 20-30 %-i, hər 5-8 ildə isə peşələr tamamilə köhnəlir. Artıq gənclərimiz işsizlik problemlərini mükəmməl təhsilə yiyələnmədən həll edə bilməyəcəklərini daha yaxşı başa düşürlər. Digər tərəfdən neft sektorunun inkişafı nəticəsində ölkəmizdə fəaliyyət göstərən xarici şirkətlər müasir texnologiyalarla işləməyi bilən gənclərə daha çox üstünlük verirlər. Nəticədə gənclərimizin təhsil səviyyəsi ilbəil artır.

Hələ 2003-cü ildə cənab Prezident İlham Əliyevin seçkiqabağı platformasında prezident seçiləcəyi təqdirdə ölkədə 600 min yeni iş yerlərinin açılacağı bildirilirdi. Seçkilərdə xalqın etimadını qazandıqdan sonra möhtərəm prezident öz vədinə sadiq qalaraq ölkənin, xüsusən də regionların inkişafına diqqət yetirməyə başladı. Bununla bağlı xüsusi dövlət proqramı təsdiq edildi. Qəbul olunmuş proqram nəticəsində regionlarda yeni istehsal və xidmət müəssisələri istifadəyə verildi. Dövlətin maliyyə dəstəyi ilə iri infrastruktur layihələrin həyata keçirilməsinə başlandı. Əlbəttə, görülən işlər ixtisaslı mütəxəsislər olmasaydı mümkün olmazdı.

Savadlı gənc mütəxəsislərin hazırlanması orta məktəbdən başlayır. Dövlətimiz bu məsələyə də xüsusi diqqət yetirir. Azərbaycanda büdcənin ən böyük hissəsi təhsil xərclərinə yönəldilibdir. Son illər həm dövlət vəsaiti hesabına, həm də Heydər Əliyev fondunun hesabına yüzlərlə məktəb tikilib. Məktəb tikintisi bu gün də sürətlə davam etdirilir. Azərbaycanda bütövlükdə təhsil infrasturukturu yeniləşir. Böyük əhəmiyyət kəsb edən kompüterləşmə proqramı həyata keçirilir. Hər bir məktəbdə kompüter sinifi yaradılır və intrnetə çıxış təmin olunur. Nəticədə gənclərimiz, şagirdlərimiz, tələbələrimiz dünyada baş verən bütün hadisələri yaxından izləyir, yeni müasir informasiya texnologiyalarına yiyələnirlər. Onlar dünyada gedən prosesləri təhlil etmək üçün imkanlar əldə edirlər. Bu gün Azərbaycan gəncləri xarici ölkələrə təhsil almağa, biznes qurmağa, təcrübə qazanmağa, işləməyə və s. faydalı işlər görməyə gedir. Xaricdə çalışan gənclərimizin böyük hissəsi bir neçə ildən sonra vətənə dönərək əldə etdikləri təcrübəni, işgüzarlığı və iqtisadi sistemin xüsusiyyətlərini ölkəmizdə tətbiq edirlər.

Azərbaycan hökuməti müsir gənclərimizlə bərabər gələcəkdə yetişəcək gəncləri də düşünüb. Belə ki,

Azərbaycan müstəqillik əldə etdikdən sonra öz təbii sərvətlərindən istifadə edilməsi məsələsi ön plana çəkildi. Çünki, respublikamıza neft sərvətlərinin sahibi kimi tarixi şans verilmişdi və bundan da dövlət başçısı Heydər Əliyev böyük uzaqgörənliklə istifadə etdi. İri həcmli neft müqavilələri bağlandı, Azərbaycan neftini dünya bazarına daşıyacaq neft kəmərləri tikildi. Ən əsası neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir. Azərbaycanda fəaliyyət göstərən Dövlət Neft Fondu iqtisadi inkişaf üçün artıq çox güclü bir amildir. Bildiyimiz kimi, Neft Fondunun əsas gəlirləri və vəsaiti gələcək nəsillər üçün əmanət kimi saxlanılacaqdır. Gələcək nəsillər, gənclər Neft Fondunun imkanlarından səmərəli istifadə edəcəklər.

Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi siyasəti nəticəsində bu gün ölkəmiz yeni bir inkişaf dövrünə qədəm qoyub. Artıq prezident İlham Əliyevin uğurlu siyasətinin nəticələri özünü əhalinin rifah halının yüksəlməsində və iqtisadi inkişaf sahəsində göstərməkdədir.

Dövlət başçısının 2007-ci ili gənclər ili kimi qeyd etməsi çox mühüm tarixi hadisə idi. Bu sərəncam Azərbaycan dövlətinin gənclərə göstərdiyi qayğını

əyani şəkildə sübut edir. İndi iqtisadiyyatın müxtəlif sahələrində aparıcı qüvvə kimi gənc nəsil iştirak edir. Cəmiyyətin hər bir sahəsində gənclərin rolu böyük əhəmiyyət kəsb edir. Bu hər şeydən əvvəl dövlətimizin gənc nəslə göstərdiyi qayğının bariz nümunəsidir. Azərbaycan gəncliyinin beynəlxalq gənclər hərəkatına inteqrasiyası sahəsində böyük uğurlar qaznılmışdır. Respublikanın gənclər təşkilatları BMT-nin, YUNESKO-nun, Avropa Şurasının, Avropa Birliyinin və s. beynəlxalq qurumların gənclər proqramlarına qoşulur, birgə layihələrdə iştirak edir, MDB və digər ölkələrin gəncləri ilə müntəzəm tədbirlər keçirirlər.

2001-ci il fevralın 2-də Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan gəncləri ilə görüşü olmuşdur. Ulu öndər görüşdə geniş nitq söyləmiş və gənclərin qarşısında duran vacib məsələlərdən danışmışdır. O, dövlət idarəetmə orqanlarında gənclərin məsul işlərə cəlb olunmasını təmin etməklə bağlı verdiyi tapşırığı yerinə yetirmək məqsədilə bacarıqlı, intelektli və fəal gənclər seçilib icra hakimiyyəti sistemində, müəssisə, komitə və təşkilatlarda məsul vəzifələrə irəli çəkirlər.

Bu gün milli vətənpərvərlik Azərbaycanın hər bir vətəndaşının, hər bir gəncinin həyatının əsas prinsipidir. Baxmayaraq ki, 1994-cü ilin mayından

Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə olunmuşdur, amma bununla yanaşı ordumuz gücləndirilir və xalqımız torpaqlarımızın azad edilməsi üçün daim döyüşə hazırdır. O cümlədən, bu gün hər bir gənc Azərbaycanın Milli Ordusunda xidmət etməyi özü üçün ən şərəfli vəzifə hesab edir.

İstedadlı gənclərə diqqət və qayğını artırmaq üçün H. Əiyevin " Azərbaycan Respublikasının istedadlı gənc yazıçılarına dövlət qayğısının artırılması haqqında" 6 dekabr 1999-cu il tarixli və "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında" 22 iyun 1996-cı il tarixli fərmanları bu qayğının təcəssümüdür.

Beləliklə, bu gün hər bir Azərbaycan gənci Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır. Əlbəttə ki, bu günün gəncliyi vətənpərvər, sağlam ruhlu, özünə inamlı, mübariz gənclikdir. Əminliklə deyə bilərik ki, Azərbaycan gəncliyi dövlət başçısının iqtisadi-siyasi, mədəni arenadakı siyasi fəaliyyətini birmənalı dəstəkləyir.

Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən Ümummilli Liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və

gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

Ümummilli Lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib. Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı

üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir.

Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin ölkədə “Gənclər ili” elan olunması da Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədi daşıyır. Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib.

Bu gün respublikamızda çoxlu sayda Olimpiya İdman Komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

Təsadüfi deyil ki, beynəlxalq yarışlarda qazanılan idman nailiyyətlərimizin sayı ildən-ilə artır. Azərbaycanın "Rio-2016" XXXI Yay Olimpiya Oyunlarında 18 medal qazanaraq bu göstəriciyə görə, 14-cü yerdə qərarlaşması bu sahəyə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Bundan başqa, milli komandamızın ölkəmizdə yüksək səviyyədə keçirilən "Bakı-2015" I Avropa Oyunlarında ikinci, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında birinci yeri tutması, şahmatçılarımızın üçüncü dəfə Avropa çempionu olmaları Azərbaycan gənclərinin son illərdə idman sahəsində qazandıqları uğurların əyani göstəriciləridir.

Bu gün tam əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin gəncliyə və gənclərə qayğısı indi yeni mərhələyə qədəm qoyub. Ölkəmizdə gənc nəslin

problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-

siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyev gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının təsdiq olunmasına dair Sərəncam imzalayıb. Gənclərlə bağlı bütün məsələlərin geniş əhatə olunduğu bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusu sıralarında Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi

heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər.

Artıq Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşıb. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artıb. Gənclər də öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin

problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabahlara aparacaq

Beləliklə, Heydər Əliyevin gənclərə göstərdiyi diqqət və qayğı yüksək intellektual səviyyəli, vətənpərvər ruhlu, millətini, vətənini sevən gənclərin formalaşması ilə nəticələndi. Şübhəsiz ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlət gənclər siyasəti müasir, inkişaf etmiş, yüksək intellektual biliyə malik Azərbaycan gəncliyinin formalaşmasında mühüm rol oynayır. Bu siyasətin əsasında milli-mənəvi dəyərlərə sadiq, öz bilik və bacarıqlarını Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin qorunması və inkişafı yolunda sərf etməyə, Vətənin azadlığı uğrunda canından keçməyə hazır, vətənpərvərlik ruhunda tərbiyə olunan gənc nəslin yetişdirilməsi dayanır. Bu gün hər bir Azərbaycan gənci Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün

yumruğunu bir hədəfə vurmalıdır. Bu gün hər bir Azərbaycan gənci Ümummilli Lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətində daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün yumruğunu bir hədəfə vurmalıdır. Əlbəttə ki, bu günün gəncliyi vətənpərvər, sağlam ruhlu, yüksək intellekual səviyyəli, özünə inamlı, qəytiyyətli, mübariz gənclikdir.

# Heydər Əliyevin qlobal geosiyasi gedişləri: diplomatiya ustadı

1990-cı illərin əvvəlləri Azərbaycan üçün təkcə siyasi deyil, həm də sosial-iqtisadi baxımdan ağır və mürəkkəb bir dövr idi. Sovet İttifaqının dağılmasından sonra Azərbaycan öz müstəqilliyini elan etdi, lakin bu çoxdan gözlənilən azadlıq siyasi qeyri-sabitlik, hərbi münaqişə və iqtisadi inflya-siya ilə müşayiət olunurdu. 1988-1993-cü illərdə ölkədə tez-tez hakimiyyət dəyişikliyi baş vermişdi, qeyri-sabitlik, mənalı-mənasız mitinqlər, populist çıxışlar, "yalançı qəhrəmanlar", söz "pəhləvan-ları" az qala ölkənin həyat tərzinə çevrilmişdi. Siyasi qruplar arasında kəskin rəqabət və daxili

**çəkişmələr, Qarabağ münaqişəsi və xarici təhdidlər ölkəni uçuruma doğru aparırdı.**

1993-cü ildə Azərbaycan həm siyasi, həm iqtisadi, həm də hərbi baxımdan dərin böhran yaşayırdı. Ölkə iqtisadi cəhətdən demək olar ki, çökmüş vəziyyətdə idi. Dövlət büdcəsi əvvəlki illərlə müqayisədə 60-70 faiz azalmışdı və 1993-cü ilin statistikasına görə, Azərbaycanın dövlət büdcəsi cəmi 240 milyon manat təşkil edirdi (hazırda bu rəqəm 40 milyard manata yaxındır). Bütün sektorları əhatə edən geriləmə, sənayenin iflic olması, aqrar sektorun dağılması, elm və təhsil sisteminin böhranı, inflyasiyanın 1000%-dən yuxarı qalxması və digər sosial faktorlar günün reallığı idi.

Hesab edirəm ki, sonralar Heydər Əliyevin dəfələrlə təkrar etdiyi və onun dillər əzbəri olan "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri məhz həmin illərdə formalaşmışdı. Çünki bu ağır

şəraitdə xalqın tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev çıxılmaz bir vəziyyətlə üz-üzə qalmışdı, atmaq istədiyi bütün addımların qarşısını ölkədəki zəif iqtisadi durum kəsirdi. Dünyanın qüdrətli dövlətləri ilə sıx diplomatik münasibətlər yaratmadan ölkəni bu vəziyyətdən çıxarmaq mümkün deyildi, onlar üçün isə büdcəsi ortabab bir şirkətin büdcəsinin yarısı qədər də olmayan qeyri-sabit ölkə ilə əməkdaşlıq maraqlı deyildi. Yəni iqtisadi vəziyyəti yaxşılaşdırmaq, siyasi sabitlik yaratmaq üçün nüfuzlu dövlətlərin himayədarlığı lazım idi, ancaq onlar yalnız imkanlı ölkələrə sərmayə yatırırdılar. Məhz bu vəziyyətdə olan ölkəyə qeyri-adi diplomatik bacarıqlar, çevik təfəkkür, siyasi təcrübə, geniş dünyagörüşü və milli maraqların sintezində fəaliyyət göstərmək iqtidarında olan bir rəhbər lazım idi – bu, Heydər Əliyev oldu.

1994-cü ildə bağlanmış "Əsrin Müqaviləsi"nə qədərki dövrdə neft kontraktları ilə bağlı hadisələrə kiçik bir ekskurs etmək istəyirəm ki, Heydər Əliyevin

xidmətləri haqqında daha aydın təsəvvür yaransın. Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk illərdə də bu kontraktların imzalanmasına bir neçə dəfə cəhd göstərilmişdi, ancaq həmin təşəbbüslər müxtəlif səbəblərə görə uğursuzluğa düçar olmuşdu. 1991-ci ildə Azərbaycan müstəqilliyini elan etdikdən sonra Ayaz Mütəllibov hökuməti vəziyyətdən çıxış yolunu burada görsə də, onun bu kontraktları hazırlamağa belə vaxtı çatmadı. Mürəkkəb tarixi şəraitdə toqquşan xarici qüvvələrin maraqları onun tezliklə hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi.

AXC-Müsavat hakimiyyəti dövründə də xarici neft şirkətləri ilə danışıqlara başlanıldı. Bu vaxt "Azərbaycan beynəlxalq konsorsiumu" formatında ilk müqavilə layihələri hazırlanmağa başladı. Lakin bu layihələr qeyri-peşəkar hazırlandığı və geosiyasi kontekst nəzərə alınmadığı üçün uğur qazanmadı. 1992-ci ilin ortalarında ARDNŞ-nin o zamankı rəhbərliyi bir neçə Qərb şirkəti ilə ilkin müqavilə

layihələri üzrə görüşlər keçirdi. Xüsusilə "Amoco", "BP", "Statoil", "Unocal" və "McDermott" kimi şirkətlərlə danışıqlar aparılırdı. Lakin bu cəhdlərdə müqavilələrin hüquqi bazasının zəif olması, xarici şirkətlərin Azərbaycanın daxili siyasi qeyri-sabitliyinə görə tərəddüd etməsi, Qarabağ münaqişəsinin alovlanması və Gəncədə qiyam təhlükəsinin gözlənilməsi xarici sərmayəni çəkindirməyə başladı. Bununla belə, AXC-Müsavat hakimiyyəti ilk müqaviləni 1993-cü ilin əvvəllərində imzalamaqda israrlı idi. Lakin dövlətin siyasi iradəsinin zəif olması, dağınıq və qeyri-sabit idarəetmə sərmayəçilərə etibar üçün əsas vermirdi.

Bundan başqa, müqavilələrin beynəlxalq hüquqa uyğunlaşdırılmaması, geosiyasi zəmanətin və təhlükəsizlik təminatının olmaması da onların tərəddüd etməsi ilə nəticələnirdi.

Necə deyərlər, hər qəpiyinin qədrini bilən, "yüz dollar qazanacağına əmin olmamış on dollarını belə xərcləməyən" beynəlxalq şirkətlər qeyri-müəyyən siyasi vəziyyətdə olan Azərbaycana investisiya yatırmaqdansa, gözləməyi üstün tuturdular və sonralar proqnozlarının düzgünlüyünü gördülər. 1993-cü ilin iyun ayında baş verən Gəncə hadisələri, Prezident Əbülfəz Elçibəyin Naxçıvana getməsi və hakimiyyətin ümumi böhranı səbəbindən danışıqlar tamamilə dayandırıldı.

İlk baxışda Heydər Əliyevin hakimiyyətə gəlməsi neft müqavilələrinin imzalanması üçün heç bir hüquqi baza yaratmırdı. Əksinə, iki dəfə fiaskoya uğrayan kontraktlar Azərbaycanın beynəlxalq nüfuzunu xeyli aşağı salmışdı, az qala hər il baş verən hakimiyyət dəyişikliyi də xarici investorların diqqətindən yayınmırdı. Yenidən etimad qazanmaq, necə deyərlər, Azərbaycandan əlini üzən böyük şirkətləri geri qaytarmaq ikiqat çətin idi...

Ancaq başqa çıxış yolu da yox idi, neft müqavilələri imzalanmasaydı, Azərbaycanın təhlükəsizliyi beynəlxalq qüvvələrin maraq çərçivəsinə salınmasaydı, onun bir dövlət kimi dünya xəritəsindən silinməsi prosesi qarşısıalınmaz bəlaya çevrilməkdə idi. Heydər Əliyev yalın əllə ağır döyüşə gedən cəsarətli əsgərə bənzəyirdi. Belə vəziyyətdə yalnız regionda marağı olan bütün dövlətlərlə siyasi münasibətlərin qurulması üçün parlaq zəka, gərgin fəaliyyət, polad iradə, diplomatik çeviklik tələb olunurdu.

Azərbaycan neft kontraktlarının imzalanması ərəfəsində Rusiya, Türkiyə, İran kimi qonşu dövlətlərlə yanaşı, Qərb dövlətləri (ABŞ, Böyük Britaniya, Fransa), eləcə də İslam dünyası və Mərkəzi Asiya dövlətləri ilə əlaqələr qurmağa çalışırdı. Bu siyasət, Azərbaycanın geosiyasi cəhətdən mövqeyini yüksəltmək, onu qoruyub saxlamaq üçün zəruri idi. Heydər Əliyev beynəlxalq münasibətlərdə "balanslaşdırılmış siyasət" prinsipini əsas götürürdü.

Bu strategiyanın əsas məqsədi Azərbaycanın həm region ölkələri ilə, həm də Qərb və Şərq gücləri ilə paralel və neytral münasibətlər quraraq ölkənin təhlükəsizliyini və müstəqilliyini qorumaq idi.

Əvvəlcə qonşu dövlətlərlə münasibətlər bərpa edilməli idi. Bu gün üstündən 30 ildən artıq bir müddət keçdikdən sonra olanları daha yaxşı təhlil etmək mümkündür, bu zaman çox aydın görünür ki, Heydər Əliyev nə qədər dəqiqliklə hesablanmış xarici siyasət həyata keçirmişdir.

Azərbaycanın ilk diplomatik əlaqə qurduğu ölkə olan Türkiyə ilə münasibətlər dostluq və qardaşlıq üzərində bərqərar olurdu. Azərbaycanın müstəqilliyini ilk tanıyan və dili bir, dini bir, tarixi bir ölkə ilə münasibətlərin qurulmasında da müəyyən problemlər mövcud idi. Türkiyə hökumətində nüfuzlu mövqeyi və AXC-Müsavat cütlüyünün təəssübkeşi olan müəyyən qüvvələr bu münasibətlərin yaxşılaşmasına hər vəchlə

mane olmağa çalışırdılar. Lakin onlar unudurdular ki, qarşı tərəfdə böyük strateq Heydər Əliyev dayanır. Köhnə dostu Süleyman Dəmirəl, Baş nazir Tansu Çillər onun zəkası önündə heyran idilər. 1994-cü il fevralın 9-da imzalanmış "Dostluq və əməkdaşlıq haqqında saziş" nəticəsində indiyədək mövcud olan münasibətlər yeni mərhələyə keçdi. Türkiyə Azərbaycan üçün hərbi və texniki yardım göstərən əsas ölkələrdən biri oldu.

Ermənistanla müharibədə gizli müdaxiləsi, imperiya maraqları, Qafqazı daim tabeliyində saxlamaq istəyi olan, buna görə də Azərbaycanda daimi kəşfiyyat şəbəkəsi quran Rusiyanı neytrallaşdırmaq ən çətin məsələlərdən biri idi. Ölkəmizdə son illərdə baş verən dövlət çevrilişlərinin əsas ssenari müəlliflərindən biri, neft kontraktlarının imzalanmasına açıq və gizli narazılığını bildirən, bu məqsədlə Xəzər dənizinin hüquqi statusunun müəyyən olunması məsələsini Qarabağ problemi kimi 30 il uzatmaq iddiasında olan, ABŞ və Avropa ölkələrinin Qafqaza daxil olmasını hər vəchlə

dayandırmaq istəyən Rusiyanın siyasi manevrlərini incəliklərinə qədər bilən Ulu öndər bu dövlətlə münasibətləri, özünün dediyi kimi, "nazik ip üzərində yeriməklə" olsa da, qurmaq istəyirdi. Ancaq Yeltsin hökuməti də Heydər Əliyevin Moskvaya səfərini hər vəchlə təxirə salmağa çalışırdı, onlara məlum idi ki, Ulu öndər, Boris Yeltsinlə görüşsə, onu "Əsrin Müqaviləsi"nin imzalanmasına razı salacaq. Bir neçə dəfə göstərilən cəhdlər müxtəlif bəhanələrlə başqa vaxta keçirildi, nəhayət, böyük çətinliklərlə də olsa, tarixi gizli saxlanılan həmin müqavilənin imzalanmasına 3-4 gün qalmış Heydər Əliyev Moskvaya gedib Yeltsinlə görüşə bildi. 1994-cü ilin 15-18 sentyabr tarixlərində baş tutmuş həmin görüş 20 sentyabrda imzalanacaq "Əsrin Müqaviləsi"nin əsas dönüş nöqtələrindən biri oldu.

Bu səfər, Azərbaycan və Rusiya arasında münasibətlərin yenidən qurulması və sabitləşdirilməsi baxımından çox əhəmiyyətli idi. Nəzərə almaq

lazımdır ki, həmin dövrdə Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, daxili siyasi qeyri-sabitlik və enerji siyasəti ilə bağlı mürəkkəb vəziyyət yaşayırdı. Heydər Əliyev Rusiya ilə münasibətləri normallaşdırmaqla beynəlxalq balans yaratmaq istəyirdi. Səfər zamanı Azərbaycan və Rusiya arasında bir neçə mühüm sənəd, o cümlədən dostluq və əməkdaşlıq haqqında müqavilə, təhlükəsizlik, sərhəd və hərbi sahədə əməkdaşlığa dair razılaşmalar, nəqliyyat və enerji sahələrində əməkdaşlıq protokolları imzalanmışdı.

Bu sənədlər iki ölkə arasında münasibətlərin rəsmi və hüquqi əsaslara söykənərək qurulmasını təmin etdi. Səfərin əsas məqsədləri reallıqları nəzərə ala bilməyən əvvəlki hökumətin bəzi nümayəndələrinin populist çıxışları və əməlləri nəticəsində pozulmuş Rusiya ilə siyasi-iqtisadi münasibətlərin bərpası və sabitləşdirilməsi, Qarabağ münaqişəsi ilə bağlı Moskvanın mövqeyinə təsir göstərmək, neft siyasəti və enerji təhlükəsizliyi məsələlərində koordinasiya, regional

təhlükəsizlik məsələlərinin müzakirəsi idi. Heydər Əliyevin bu səfəri Rusiya ilə münasibətləri konstruktiv məcraya salmaq üçün mühüm səhifə oldu. Rusiya rəhbərliyi ilə qarşılıqlı hörmətə əsaslanan münasibət formalaşdırıldı və Azərbaycan-Rusiya əlaqələrinin yeni mərhələsi başlandı. Bu səfər ölkənin balanslı xarici siyasət strategiyasının formalaşmasında da əsas rol oynadı, imzalanan strateji sazişlər Rusiya ilə münasibətlərdə yeni səhifə açdı.

Doğrudur, böyük strateq Heydər Əliyev Azərbaycan neftini ancaq Rusiya vasitəsilə satılması prinsipində inadlı olan prezident Boris Yeltsini müqavilənin imzalanmasına razı sala bildi, lakin proseslər göstərdi ki, heç də hər şey göründüyü qədər sadə deyil. Prezidentlərinin razılıq verməsinə baxmayaraq, Rusiya XİN sözçüsü Qriqori Karasin açıq bəyan etdi ki, Moskva bağlanan müqaviləni tanımayacaq. Ancaq Heydər Əliyevin çoxkombinasiyalı gedişləri, diplomatik məharəti, qərbi texnoloji

tərəfdaşlığa cəlb edə bilməklə yanaşı, Rusiya maraqlarını da təmin etməyə çalışması, müqavilədə Rusiya şirkəti "LUKoil"in 10% paya malik olması dövrün reallıqlarını nəzərə alaraq Rusiya təzyiqini azaltmağa yönəlmişdi. Bu siyasi manevrlərin nəticəsində, nəhayət, "Əsrin müqaviləsi" mərasiminə ən təhlükəli və təxribatçı tərəfdaş olan Rusiyanın Yanacaq və

Energetika Nazirliyinin nümayəndəsi Stanislav Puqaçın qatıldı və təbrik çıxışı etdi.

Dünyanın ən qeyri-sabit və iqtisadi cəhətdən zəif ölkələrindən biri olan Azərbaycanla dünyanın super dövləti ABŞ arasında münasibətlərin yaranması da Heydər Əliyev zəkasının təntənəsi hesab edilə bilər. Yeri gəlmişkən, burada müəllifi olduğum "Zəfərə aparan yol" kitabından kiçik bir hissəni vermək istəyirəm:

"Azərbaycan müstəqilliyin ilk illərində ağır iqtisadi böhran yaşayırdı. Heydər Əliyevdən əvvəl

iqtidarda olanlar ona ağır miras qoymuşdular. Dövlət xəzinəsi boş idi. Belə vəziyyətdə heç bir iş görmək mümkün deyildi və ümid yalnız dənizin dibindəki neftə qalırdı.

Ulu öndər çox böyük uzaqgörənliklə xarici şirkətləri Xəzər neftinin çıxarılmasına cəlb etməyə çalışırdı. Lakin o vaxt Azərbaycan riskli ölkə sayılırdı.

Qeyd etmək lazımdır ki, Ulu öndərin Vətəni və xalqı qarşısında tarixi xidmətlərindən biri də əcnəbi investorları Azərbaycana sərmayə yatırmağın hədər getməyəcəyinə inandırması olmuşdur.

Danışıqlar isə çətin gedirdi. Tərəflərdən hər biri öz marağından çıxış edirdi. 1994-cü ilin martında Bakıda başlayan danışıqlar sonralar İstanbulda və Hyustonda davam etdirildi. Qarşı tərəf çox ağır şərtlər qoyurdu. Hətta belə bir şərt irəli sürülmüşdü ki, Azərbaycan Rusiya ilə razılaşıb Xəzərin hüquqi

statusunu həll etməsə, danışıqlar dayandırılacaq. Status məsələsinin həlli isə bir-iki ilin işi deyildi. Bu barədə məlumat alan Ulu öndər o vaxt Dövlət Neft Şirkətinin xarici əlaqələr üzrə vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyevi Vaşinqtona göndərdi. O, okeanın o tayında çox faydalı görüşlər keçirib məsələni yoluna qoydu.

Cənab İlham Əliyev sonralar çıxışlarının birində həmin günləri xatırlayaraq demişdir ki, Amerikanın Hyuston şəhərində bir aydan çox davam edən danışıqlar həlledici rol oynadı: "Dövlət Neft Şirkətinin rəhbərliyi – bizim dostumuz rəhmətlik Natiq Əliyev, Xoşbəxt Yusifzadə, Valeh Ələsgərov, mən və digər əməkdaşlar çalışırdıq investorları inandıraq ki, Azərbaycana sərmayə qoymaq olar, sərmayə qoymaq lazımdır və Azərbaycana bu gün sərmayə qoyan sabah böyük fayda görəcək. Belə də oldu. "Əsrin kontraktı"nın icrasına qoyulmuş sərmayə artıqlaması ilə qaytarıldı. Xarici investorlar milyardlarla dollar gəlir

əldə etdilər. Azərbaycan dövləti yüz milyard dollardan çox gəlir əldə etdi".

Danışıqların iştirakçısı olmuş Xoşbəxt Yusifzadə xatırlayır: "Nəzərə almaq lazımdır ki, o vaxt müstəqillik yoluna təzəcə qədəm qoymuş Azərbaycanda neftçi mütəxəssislərin xarici şirkətlərlə danışıqlarda kifayət qədər təcrübəsi yox idi. Lakin Moskvada Beynəlxalq Münasibətlər İnstitutunu bitirib, alimlik elmi dərəcəsi almış və sonra da həmin institutda dərs demiş İlham Əliyevin ingilis dilini və beynəlxalq hüquq məsələlərini gözəl bilməsi, tərəfdaşlarımızla birbaşa ünsiyyət qurub, mürəkkəb vəziyyətlərdən çıxış yollarını tapmaq və gərginliyi aradan qaldırmaq məharəti Vaşinqtonda səlahiyyətli şəxslərlə görüşlərdə də özünü göstərdi".

Beləliklə, "Əsrin müqaviləsi" adını almış həmin neft kontraktı Azərbaycanı inkişaf yoluna çıxardı və

neft sənayesinin, bütövlükdə ölkənin sonrakı taleyində həlledici rol oynadı”.

Bu mürəkkəb danışıqlar haqda məlumatlı olan prezident Klinton və onun administrasiyası 1994-cü il “Əsrin Müqaviləsi”nin imzalandığı dövrdə Azərbaycanın enerji resurslarına böyük maraq göstərirdi və bu müqaviləni ABŞ-ın Xəzər regionunda nüfuzunun artması üçün strateji imkan kimi qiymətləndirirdi. Rəsmi məlumatlara görə, hakimiyyətdə olduğu müddət ərzində (1993-2001) Klintonla Heydər Əliyev arasında 15-16 dəfə görüş olmuşdur – bura həm şəxsi, həm telefon söhbətləri, həm də beynəlxalq çərçivəli toplantılardakı ünsiyyətlər daxildir. Məhz bu səbəbdən ABŞ-ın o dövrdəki səfiri Riçard Kozlariç və digər diplomatlar “Əsrin Müqaviləsi”nin imzalanmasına dəstək vermiş və mərasimdə iştirak etmişdilər.

“Əsrin Müqaviləsi”ndən bir neçə gün sonra - 1994-cü il sentyabrın 26-da BMT Baş Assambleyasının Nyu-York sessiyası çərçivəsində keçirilən ilk görüş Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini beynəlxalq ictimaiyyətə çatdırmaq və ABŞ-ın bu mövzuya aktiv münasibətini xahiş etmək baxımından çox əhəmiyyətli idi. Xüsusilə enerji sahəsində ABŞ ilə əlaqələr möhkəmləndirildi. 1994-cü ildə NATO ilə “Sülh naminə tərəfdaşlıq” proqramına qoşulmaqla hərbi əməkdaşlığa başlanıldı. Görüşlər Klinton administrasiyası tərəfindən də yüksək dəyərləndirildi – xüsusilə ABŞ-ın Azərbaycanla energetika, humanitar yardım, investisiya və demokratiya sahələrində əməkdaşlıq perspektivlərinə dair müzakirələr yeni hadisə idi. Görüş həm siyasi, həm də strateji bir mesaj idi: ABŞ Azərbaycanın müstəqilliyini və enerji layihələrini dəstəkləyir, Klinton administrasiyası regionda balanslı siyasətin tərəfdarıdır. Heydər Əliyev CNN kanalına

müsahibəsində bildirdi ki, ABŞ Prezidenti və köməkçiləri Azərbaycanın suverenliyi və ərazi toxunulmazlığı məsələlərini ciddi qəbul edir və prezident Klinton bu məsələni Rusiya prezidenti Yeltsinə planlaşdırdığı görüşdə müzakirə edəcəyini bildirib. Dünyanın super gücü olan ABŞ-ın mövqeyindəki bu yenilik bəzi dövlətlər tərəfindən qısqanclıqla qarşılansa da, reallıq idi və bunu, ən azı Azərbaycan diplomatiyasının ustalığı hesab etmək lazımdır.

Avropanın Fransa və Almaniya kimi aparıcı ölkələri ilə diplomatik münasibətlər elmi, texnoloji və iqtisadi əməkdaşlıqlarla möhkəmləndirildi.

Fransanın eyni zamanda ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi Qarabağ münaqişəsinin sülh yolu ilə həllində iştirak etməsi, orada erməni lobbisinin güclü mövqeyi onunla xüsusi diplomatik münasibət tələb edirdi, ona görə də Cənubi Qafqazın kiçik və o dövr üçün bütün parametrləri ilə zəif olan ölkəsi

ilə Avropanın ən qüdrətli ölkələrindən biri olan Fransaya Heydər Əliyevin səfəri barədə bir qədər ətraflı yazmaq istəyirəm.

Heydər Əliyev 1993-cü ilin 19-22 dekabr tarixlərində Fransaya rəsmi dövlət səfəri etmişdir. Bu, onun prezident seçilməsindən sonra Fransaya ilk və çox mühüm xarici səfərlərindən biri idi. Səfərin məqsədi Azərbaycan və Fransa arasında diplomatik əlaqələri dərinləşdirmək, siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlıqları institusional əsaslara keçirmək, Ermənistan-Azərbaycan münaqişəsi fonunda Fransanın dəstəyini və mövqeyini yaxından öyrənmək və imkan daxilində dəyişdirmək idi. Həmin günlərdə Heydər Əliyev Fransa Prezidenti Fransua Mitteran ilə rəsmi görüş keçirdi, həmçinin Fransa parlamentinin deputatları, işgüzar dairələrin təmsilçiləri və ictimaiyyət nümayəndələri, UNESCO və digər beynəlxalq təşkilatların nümayəndələri ilə fikir mübadiləsi apardı. Gərgin və üzücü görüşlər nəticəsində iki ölkə arasında

uzunmüddətli strateji münasibətlərin qurulmasına zəmin yaradan Azərbaycanla Fransa arasında dostluq və əməkdaşlıq haqqında Bəyannamə, Fransa-Azərbaycan Paris Xartiyası, fransız şirkətlərinin Azərbaycanda fəaliyyətə başlamasına yol açan Ticarət və iqtisadi əməkdaşlıq haqqında razılaşma imzalandı.

Bu səfər Azərbaycan diplomatiyasında Avropa İttifaqına inteqrasiyanın ilkin addımı kimi çox qiymətli uğur kimi dəyərləndirildi. Bu səfərdən sonra Fransanın ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri kimi Dağlıq Qarabağ münaqişəsində neytral vasitəçi mövqeyi tutması daha da dəqiqləşdi.

İndiyədək bu barədə bir kəlmə də danışmayan Fransa rəsmiləri Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini açıq şəkildə bildirdilər. Azərbaycan-Fransa münasibətlərinin əsası məhz bu səfər zamanı praktiki müstəviyə keçdi.

Neft kontraktlarının bağlanması ərəfəsində Avropanın nəhəng dövləti olan Böyük Britaniya ilə münasibətlər də olduqca önəmli idi. Azərbaycan Respublikası Prezidentinin 1994-cü il fevralın 22-dən 25-dək Böyük Britaniyaya ilk rəsmi səfəri zamanı Heydər Əliyev Böyük Britaniyanın Baş naziri Con Meycorla, həmçinin, Birləşmiş Krallığın digər dövlət və hökumət nümayəndələri, şirkət rəhbərləri ilə görüşmüşdü. Sözügedən səfər zamanı Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında dostluq və əməkdaşlıq haqqında bəyannamə, elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlıq haqqında və hava nəqliyyatı haqqında sazişlər, məhdudiyyətsiz hərəkət azadlığı haqqında anlaşma memorandumu imzalanmışdır.

Bu səfər Azərbaycan-Böyük Britaniya əlaqələrində mühüm əhəmiyyətə malik idi. Görüşlər zamanı Dağlıq Qarabağ münaqişəsi, İngiltərənin, BMT və Avropa təşkilatlarının bu məsələdə vasitəçilik

səyləri, regionda sülhə dəstək məsələləri çox gərgin şəraitdə müzakirə edilmişdi. Həmçinin Azərbaycanda "Əsrin müqaviləsi"nin hazırlıq mərhələsində “Azəri-Çıraq-Günəşli” yataqlarını işləyən ABƏŞ-in layihəsinin Britaniya şirkətlərinin maraqları müzakirə mövzusu olmuşdu. Azərbaycanın mürəkkəb siyasi-iqtisadi durumuna baxmayaraq, Britaniyanın Azərbaycan iqtisadiyyatına yatırımlarının, o cümlədən bank, infrastruktur və tikinti sahələrində əməkdaşlıq perspektivlərinin müzakirəsi də aparılmışdı.

Bu səfər nəticəsində Azərbaycanın diplomatik mövqeyi gücləndi, Britaniya şirkətlərinin Azərbaycan neft sektoruna investisiya maraqları daha da artdı, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq təşkilatlarda müzakirəsi zamanı Böyük Britaniya Azərbaycanın haqq işini daha ciddi müdafiə etməyə başladı. Bununla da Heydər Əliyev hələ də xaos girdabında çapalayan Azərbaycanın müstəqil xarici siyasət konsepsiyasını təsdiq etdi, eyni zamanda enerji

resurslarını "geosiyasi resursa" çevirərək, regionda balanslı beynəlxalq əlaqələrin formalaşmasına şərait yaratdı.

Hər günün öz hökmünün olduğu həmin tarixi mərhələ elə idi ki, burada gecikmək də, tələsmək də olmazdı, xarici qüvvələrin iradəsi ilə, milli hisslərdən uzaq düşən "vəzifə hərisləri"nin icrası ilə həyata keçirilən müxtəlif təxribatlar baş alıb gedirdi.

"Əsrin müqaviləsi"ndən bir neçə gün sonra, Heydər Əliyevin Nyu-Yorkda BMT Baş Məclisinin 49-cu sessiyasında iştirak etdiyi günlərdə – 1994-cü il sentyabrın 28-də MTN təcridxanasından naməlum yollarla eks müdafiə naziri Rəhim Qazıyev, onun müavini Baba Nəzərli, "Talış-Muğan Respublikası"nın "prezidenti" elan olunan Əlikram Hümbətov və digərləri qaçırıldı, sentyabrın 29-da isə Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Afiyəddin Cəlilov və Azərbaycan Respublikası Prezidenti

yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimov terror qurbanı oldu.

Bundan 3-4 gün sonra – 1994-cü il oktyabrın 2-də Baş nazir Surət Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinə cəhd baş tutdu. Bu ekstremal vəziyyətlərdə belə siyasi iradəsini itirməyən Heydər Əliyev, obrazlı desək, Azərbaycan gəmisini fırtınalardan, burulğanlardan, onu gözləyən böyük bəlalardan xilas edərək sahilə yan ala bildi.

Çox çətin iqtisadi vəziyyətdə və xaotik siyasi durumda olan bir ölkə üçün dünyanın böyük güc sahibi olan qüdrətli ölkələri ilə ikitərəfli sazişlərin bağlanılması o dövr üçün qeyri-adi hadisə idi və elə qeyri-adi də zəka, diplomatiya, cəsarət və iradə tələb edirdi. Yeni, şəffaf, hüquqi baxımdan səlis, siyasi cəhətdən zəmanətli danışıqlar platformasının yaradılması nəticəsində imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın xarici siyasətində dönüş nöqtəsi oldu. Bu

sazişlə ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya, Yaponiya, Səudiyyə Ərəbistanı olmaqla 7 ölkə və 13 enerji şirkəti Azərbaycanın neft ehtiyatlarının istismarına sərmayə qoymağa razılaşdı. Layihənin ilkin dəyəri 7.4 milyard dollar idi və zamanla bu rəqəm 60 milyard dolları keçdi. Kiçik tikinti şirkətlərinin Azərbaycana investisiya yatırmaqda tərəddüd etdiyi bir zamanda BP, "Amoco", "Statoil" kimi nəhəng şirkətlər ölkəmizə cəlb olundu. Bu, Azərbaycanın iqtisadi və geosiyasi tarixində mühüm bir hadisə oldu. Həmin dövrdə Azərbaycan bir sıra beynəlxalq təşkilatlara BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, GUAM, Qoşulmama Hərəkatı və MDB kimi qurumlara üzv oldu. Gənc və yenicə ayaq üstdə dayanmağa başlayan müstəqil dövlət üçün daha çox siyasi mahiyyət daşıyan bu qurumlara üzvlük sonralar bir sıra tələblərin həyata keçirilməsinə şərait yaratdı. Məsələn, BMT çərçivəsində Qarabağ münaqişəsinin həlli üçün 822, 853, 874 və 884 saylı qətnamələrin qəbuluna nail

olundu, ATƏT-ə üzv olan Azərbaycan bu təşkilat vasitəsilə Ermənistanla münaqişənin diplomatik yolla həllinə çalışdı, İslam Əməkdaşlıq Təşkilatında İslam dünyasının dəstəyini almaq üçün bu təşkilatda aktiv diplomatik fəaliyyət göstərildi və s.

Heydər Əliyev qısa müddətdə ölkədə sabitliyi bərpa etməklə yanaşı, Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirməyə başladı. Ulu öndərin həyata keçirdiyi çoxşaxəli diplomatik strategiya nəticəsində Azərbaycan müstəqil xarici siyasət yürüdən, beynəlxalq layihələrdə iştirak edən və regional təhlükəsizlikdə rolu olan bir dövlətə çevrildi.

Heydər Əliyev diplomatiyası ən kritik anlarda gecə-gündüz yorulmadan çalışaraq Azərbaycanı təkcə iqtisadi baxımdan gücləndirmədi, həm də ölkənin geosiyasi rolunu artırdı. Qərb dövlətləri və beynəlxalq təşkilatlar Azərbaycanın enerji resurslarına olan maraqları səbəbilə onun siyasi sabitliyinə və

təhlükəsizliyinə daha çox diqqət yetirməyə başladılar, bu da ölkəmizin sonrakı uğurlarının təməli oldu. Bütün bunların nəticəsində, obrazlı desək, Azərbaycan lokomotivi tozlu-torpaqlı, daşlı-kəsəkli, gələcəyi naməlum cığırlardan hamar dəmir yollarının üzərinə çıxa bildi və uzaq, aydın, parlaq səhərlərə doğru məqsədyönlü səfərə başladı.

***Misir Mərdanov***

***Professor***

# Heydər Əliyevin gənclər siyasəti: keçmişdən bu günə

***Ulu Öndərimizin bütün həyat və fəaliyyəti xalqımızın firavan gələcəyinin əsasını qoymağa xidmət edib***

1993-cü ilin may-iyununda ölkədə ictimai-siyasi böhranın yaranması, vətəndaş müharibəsi təhlükəsinin mövcudluğu o zamankı ölkə rəhbərliyini Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur etdi. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq referendumu nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi. 2003-cü il 15 oktyabrda keçirilən prezident seçkilərində Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etdi və namizədliyini Azərbaycanın indiki Prezidenti İlham Əliyevin xeyrinə geri götürdü.

Ulu Öndərimizin Azərbaycan xalqına ənböyük xidmətlərindən biri də onun gələcəyimizə verdiyi töhfələrdir. Heydər Əliyevin elmə, təhsilə, mədəniyyətə və sair sahələrə verdiyi önəm öz bəhrələrini verib. Ümummilli liderimiz daim məktəbliləri, tələbələri, ümumiyyətlə yeniyetmə və gəncləri diqqətdə saxlayıb, onların inkişafı üçün əlindən gələni edib.

Bugünki müstəqil dövlətçiliyimizin üzərində bərqərar olduğu dayaqlarından biri də Azərbaycan gəncliyidir. Gənclərimizin əsil Azərbaycan vətəndaşı kimi formalaşmasında, ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu öndərin

zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır."

Gənclər siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində gənclərin iştirakı, gənclər təşkilatlarına dövlət yardımı, gənc ailələrə dövlət yardımı, gənclərin məşğulluğunun təmin edilməsi, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı" kimi prinsiplər əsas tutulur.

Ulu Öndərimiz deyirdi: "biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik."

Müasir Azərbaycanın memarı Heydər Əliyev Azərbaycan gənclərinə inanırdı və O, 1998-ci il ölkə gəncləri ilə görüşündə bunu dilə gətirərək deyirdi: "Əziz övladlar! Sizin kimi gəncləri olan, gələcəyi olan Azərbaycan basılmazdır, sarsılmazdır! Məni hədsiz sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün bəlalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var. Bunlar sizlərsizin, əziz övladlar!"

Heydər Əliyevin rəhbərliyi ilə təhsil ocaqlarında yüksək standartlara uyğun maddi-texniki bazanın yaradılması, müasir tədris prosesinin tətbiq edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilib. Dövlət vəsaiti hesabına müasir tələblərə cavab verən məktəblər tikilib, tədris müəssisələri yeni avadanlıqlarla, kompüterlərlə təchiz edilib.

Ulu Öndərin gənclər siyasətində idmanın və mədəniyyətin inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Ölkə başçısının ardıcıl səyləri sayəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. Respublikamızda beynəlxalq standartlara cavab verən idman komplekslərinin

tikintisi bu gün geniş vüsət alıb. Bakıda Dünya və Avropa birinciliklərinin keçirilməsi ölkəmizin idman şöhrətindən, müxtəlif yarışlarda qazanılan çoxsaylı mükafatlar isə gəncliyə qayğıdan, onlar üçün yaradılmış gözəl şəraitdən soraq verir.

1988-1993-cü illərdə cəmiyyətimizdə hökm sürən xaos və anarxiya mədəniyyət və incəsənət sahələrinə də təsir göstərməyə bilməzdi. Həmin illərdə Azərbaycan mədəniyyəti dərin böhran içində idi. Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət daşıyan bütün fəaliyyət sahələrinə həmişə ciddi diqqət yetirən bir siyasətçi kimi tezliklə bu vəziyyəti aradan qaldırmaq üçün mühüm tədbirlər gördü. O, hələ respublikaya rəhbərlik etdiyi 70-80-ci illərdə keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarına axın-axın göndərdiyi gənclərin, ziyalıların, 1969-1982-ci illər ərzində respublikamızın təhsil, mədəniyyət, incəsənət sahələri üçün yaratdığı zəngin maddi və mənəvi potensialın səfərbər edilməsi hesabına müstəqil dövlətimizdə mədəniyyətin tənəzzül vəziyyətindən çıxarılması uğrunda fəaliyyətə başladı. Tez bir zamanda cəmiyyətdə elm, təhsil və mədəniyyət xadimlərinin rolu yüksəlməyə başladı. Yaradıcı ziyalıların respublikamızda aparılan quruculuq işlərinin müxtəlif

sahələrinə cəlb olunmaları, əvvəlki şan-şöhrətlərinin, hörmət-izzətlərinin onlara qaytarılması mədəniyyətin, incəsənətin inkişafında böyük rol oynadı.

Heydər Əliyev ideologiyasında azərbaycançılıq məfkurəsi bu gün yaradıcılıqla davam etdirilir. Tədris prosesində milli–mənəvi dəyərlərimizin, eləcə də tanınmış dövlət xadimlərinin, sərkərdələrin, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin zəngin həyat yolunun öyrənilməsinə böyük diqqət yetirilir. Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü vəzifənin öhtəsindən layiqincə gəlməyə çalışır və bunu bacarır: onların uğuru beynəlxalq konfranslardan, dövlət və hökümət qurumlarından, ölkələrarası debat, intellektual bilik yarışlarından eşidilir. Azərbaycan həqiqətlərini-musiqisini, ədəbiyyatını, rəqsini, folklorunu, mətbəxini, milli-mənəvi dəyərlərini dünyanın müxtəlif ölkələrində təbliğ edən gənclər, bütün səy və bacarığı ilə dövlətçilik ənənələrimizi tanıdaraq, dünya ictimaiyyəti tərəfindən sevilməsinə nail olur. İndi əsas amal bu günə kimi formalaşan gənclər ordusunu heç bir itki vermədən gələcəyə aparmaqdır. Şübhəsiz, bu, belə də olacaq. Çünki Azərbaycan gəncliyi ölkə Prezidenti

İlham Əliyevin rəhbərliyi ilə sabaha- yeni uğurlara imza atmağa daha yaxındır.

Əsasını Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu, Azərbaycanı uğurlu gələcəyə aparan siyasət bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən “Azərbaycan gəncliyi” dövlət proqramını təsdiq etmişdi. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənc ailələrə kömək göstərilməsi, qaçqın və məcburi köçkün ailələrindən olan yeniyetmə və gənclərin hüquqlarının qorunması, sosial problemlərin həlli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi dövlət proqramının əsasını təşkil edir.

Məhz bu gənclər siyasəti 2020-ci ilin payızında- 2-ci Qarabağ müharibəsində öz sözünü dedi- vətənpərvər və dövlətçi gənclərimiz vətənimizin Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsini düşməndən azad etdi. Ali Baş Komandanın rəhbərliyi altında bütün gənclər ölkəmizin xoşbəxt gələcəyi üçün birləşib.

Bu gün Azərbaycanda gedən proseslər göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu "böyük gələcək" siyasəti artıq öz bəhrələrini verir. O, fenomenal bir şəxsiyyət kimi öz xalqını tarixin sınaqlarından üzüağ çıxardı və Azərbaycan dövlətini məhv olmağa qoymadı. Azərbaycan xalqı öz böyük xilaskarını heç vaxt unutmayacaq.

**İbrahim Cəfərov**

*Araşdırmaçı*

# DÜNYA LİDERLƏRİNİN

# ULU ÖNDƏR

# HEYDƏR ƏLİYEV

# HAQQINDA FİKİRLƏRİ

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc BUŞ**
**Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti**

Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimi həyatdan getmişdir. Uzun illər ərzində Heydər Əlirza oğlu Əliyevin səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir.

Onun vəfatı Müstəqil Dövlətlər Birliyi, bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

**Vladimir PUTİN**
**Rusiya Federasiyasının Prezidenti**

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

**Jak ŞİRAK**
**Fransa Respublikasının sabiq Prezidenti**

Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu. Fəxr edirik ki, Britaniya şirkətləri tərəfindən qoyulan böyük sərmayələr vasitəsilə Birləşmiş Krallıq Azərbaycanın gələcək tərəqqisinə töhfələr verir.

**Toni BLEYER**
**Böyük Britaniyanın sabiq Baş naziri**

Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

**Nursultan NAZARBAYEV**
**Qazaxıstan Respublikasının sabiq Prezidenti**

Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

**Xu SZİNTAO**
**Çin Xalq Respublikasının sabiq Sədri**

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm.

Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır.

Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.

**Əhməd Necdət SEZƏR**
**Türkiyə Respublikasının sabiq Prezidenti**

Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

**Rəcəb Tayyib ƏRDOĞAN**
**Türkiyə Respublikasının Prezidenti**

Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

**Kraliça II ELİZABET**

Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur.

**Seyid Məhəmməd XATƏMİ**
**İran İslam Respublikasının sabiq Prezidenti**

Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır.

Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

**Georgi PIRVANOV**
**Bolqarıstan Respublikasının sabiq Prezidenti**

Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir.

**İslam KƏRİMOV**
**Özbəkistan Respublikasının sabiq Prezidenti**

Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

**Vladimir VORONİN**
**Moldova Respublikasının sabiq Prezidenti**

Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

**Gerhard ŞRÖDER**
**Almaniya Federativ Respublikasının sabiq Federal kansleri**

Onun adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaqdır.

**Emoməli RƏHMONOV**
**Tacikistan Respublikasının Prezidenti**

Qırğızıstanda Heydər Əlirza oğlunu müstəqil Azərbaycanın təşəkkülünə və inkişafına misilsiz töhfə vermiş görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi kimi yaxşı tanıyırdılar.

Onun rəhbərliyi ilə Azərbaycan Respublikası müstəqil inkişaf yolunda böyük uğurlar qazanmış, dünya birliyinin tanınmış və hörmətli üzvü olmuşdur. Heydər Əlirza oğlu özünün bütün istedad və müdrikliyini, Vətənə məhəbbətini, əməksevərliyini və fədakarlığını Azərbaycanın tərəqqisi işinə həsr etmişdir.

**Əsgər AKAYEV**
**Qırğızıstan Respublikasının sabiq Prezidenti**

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**II İohan Pavel**
**Roma papası**

Mərhum Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir. Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni tellərlə bir-birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir.

**Abdullah GÜL**
**Türkiyə Respublikasının sabiq Prezidenti**

Rusiya üçün Heydər Əlirza oğlu Əliyev tarixə XXI əsrdə hərtərəfli Azərbaycan-Rusiya münasibətlərinin, iki dövlətin strateji tərəfdaşlığının möhkəmlənməsinin əqidəli və fəal tərəfdarı kimi daxil olmuşdur.

**Vyaçeslav TRUBNİKOV**
**Rusiya Federasiyası xarici işlər nazirinin sabiq birinci müavini**

Dağıstanlılar Heydər Əlirza oğlunu yaxşı tanıyırdılar və onun Dağıstana xoş münasibətini həmişə xatırlayacaqlar, çünki onun bu münasibəti sayəsində xalqlarımız arasında dostluq və mehriban qonşuluq ənənələri yaranmışdır və uzun illərdən bəri mövcuddur. Onun adı xatirimizdə həmişəlik qalacaqdır.

**Məhəmmədəli MƏHƏMMƏDOV**
**Dağıstan Respublikası Dövlət Şurasının sabiq sədri**

Müstəqil Dövlətlər Birliyi ölkələrinin siyasi həyatında Heydər Əlirza oğlunun oynadığı rolu lazımınca qiymətləndirmək çətindir. Müdrik siyasətçi olaraq o, ən mürəkkəb vəziyyətlərdə konstruktiv qərarlar tapmağı bacarırdı. Təkcə Azərbaycan deyil, həm də postsovet məkanının bütün ölkələri nüfuzlu dövlət liderini itirdilər.

**Mintimer ŞAYMİYEV**
**Tatarıstan Respublikasının sabiq prezidenti**

Heydər Əlirza oğlu böyük siyasətçi, dahi dövlət rəhbəri və vətənpərvər, gözəl, istedadlı insan kimi məşhur idi. Sovet dövlətinin, sonralar MDB-nin və Azərbaycan Respublikasının tarixinin bir çox parlaq və əhəmiyyətli səhifələri onun adı ilə bağlıdır.

**Murtaza RƏHİMOV**
**Başqırdıstan Respublikasının sabiq prezidenti**

Bütün postsovet məkanında müasir siyasətçilərin bütöv bir nəslinin yetişdirilməsində Heydər Əlirza oğlunun xidməti misilsizdir. Dünya səviyyəli görkəmli dövlət xadimi kimi Heydər Əlirza oğlu ilə şəxsi görüşlərimlə bağlı xatirələri qəlbimdə həmişəlik saxlayacağam.

**Kirsan İLYUMJİNOV**
**Kalmıkiya Respublikasının sabiq prezidenti,**
**FİDE-nin sabiq prezidenti**

Azərbaycan ilə Türkiyə arasında dərin kökləri olan tarixi və mədəni bağlar vardır. Hörmətli Əliyev tarixdən gələn bu bağların yenidən canlandırılması və Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin inkişafı üçün fövqəladə səylər göstərmişdir.

**Bülənd ECEVİT**
**Türkiyə Demokratik Sol Partiyasının sabiq sədri**

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimi müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

**Çingiz Aytmatov,**
**Qırğızıstan Xalq yazıçısı**

Heydər Əliyev böyük şəxsiyyətdir. O, mənim dostum, qardaşımdır. Onun yeri həmişə ürəyimin başındadır.

**Butros-Butros Qali**
**BMT-nin sabiq Baş katibi**

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O, həqiqətən yeni Azərbaycan dövlətinin qurucusudur.

**Timm Eqqar**
**Böyük Britaniyanın sabiq energetika naziri**

Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

**Nikolay Baybakov**

**keçmiş SSRİ Dövlət Plan Komitəsinin sədri**

# “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası”

## Kulturoloji Layihə haqqında

**Azərbaycan Respublikasının Gənclər Fondunun qrant müsabiqəsi çərçivəsində maliyyələşdirilən, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi tərəfindən həyata keçirilən “Milli Konstitusiya və suveren Azərbaycan: Heydər Əliyevin yeni nəsil üçün əbədi mirası” adlı ideoloji-kreativlayihəyə dekabrın 1-dən etibarən start verilib.**

Yeni nəslin kulturoloji neo-maarifləndirilməsi istiqamətində fəaliyyətlərin üç ay müddətində reallaşdırılması barədə mediaya açıqlama verən YYSİB sədri, layihə rəhbəri Aydın Xan Əbilovun bildirdiyinə görə, gənclər, eləcə də geniş ictimaiyyət arasında müstəqil Azərbaycanın Konstitusiyasının müəllifi, Ümummilli Lider Heydər Əliyevin irsinin yeni innovativ formalarda təbliği və tanıtımı aparılması nəzərdə tutulub.

Təşkilat son 10 ildə Azərbaycanın suverinliyi, müstəqilliyi, siyasi-dövlətçilik atributları, eləcə də Konstitusiya dəyərləri, müstəqilliyi və onun banisi Ümummilli Lider Heydər Əliyev irsi ilə bağlı müxtəlif layihələr həyata keçirib, tədbirlər təşkil edib, sənədli video-film, video-çarxlar çəkib, kitablar çap edib, elektron nəşrlər hazırlayaraq yayımlayıb, İnternetdə vizual-virtual materiallar yayıb, e-aksiyalar keçirib, ictimai-mədəni neo-maarifçilik fəaliyyətlərini reallaşdırıb.

Yeni nəsil üçün Heydər Əliyev irsinə aid innovativ-ideoloji modeli gələcəkdə respublikada yaşayan gənclər, eləcə də 60 milyonluq soydaşlarımıza yönəli innovativ-kreativ, ideoloji düşüncə – təcrübə fəaliyyətlərinin reallaşdırılması planlaşdırılır.

Qlobal İnformasiya Resursu – İnternet, KİV, TV, fərqli sosial şəbəkələr və İKT alətləri, eyni zamanda, xaricdən yönləndirilən ziyanlı ideoloji-mənəvi həmlələrə qarşı dövlət müstəqilliyimizin, suverenliyimizin və Konstitusiyamızın müəllifi – Ümummilli Lider Heydər Əliyevin ölməz siyasi-dövlətçilik irsi, tarixi dəyər kəsb edən Azərbaycançılıq, vətənsevərlik ideyalarını, məhsuldar həyat və tarixi fəaliyyəti bir humanitar-kreativ, ruhi-mənəvi fikir-təsir tendensiyasına çevirməklə, yeni nəslin vətənpərvər ruhda böyüməsinə təkan verilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, milli-mədəni düşüncəmizdə Heydər Əliyev irsinə yeni formatlarda qayıdışı dəstək vermək, bu istiqamətdə silsilə tədbirərin həyata keçirilməsinə nail olmaqla, gənc nəsil üçün milli fikir, inanc və dəyər kəsb edən formatlar yaratmaq nəzərdə tutulub.

Gənc nəslin ideoloji-mənəvi kumiri hansısa xarici siyasi lider, filosof, yazıçı deyil, məhz həyatını Azərbaycanın müstəqilliyinə, inkişafına, gələcəyinə sərf etmiş Ulu Öndər Heydər Əliyev kimi dahi olmalıdır. Layihənin əsas məqsədi bu istiqamətdə modelin hazırlanması, təşəbbüsün yayılmasını təmin etmək üçün ideya formatlarının yaradılmasına təkan verməkdir.

Prezident İlham Əliyevin məlum sərəncamından irəli gələrək milli-mədəni düşüncəmizdə Heydər Əliyev irsinə yeni formatlarda qayıdışı dəstək vermək, bu istiqamətdə silsilə tədbirərin həyata keçirilməsinə nail olmaqla, gənc nəsilin milli fikir, inanc və dəyər kəsb edən formatlar yaratmaqdır.

Milli-mədəni, siyasi-ideoloji düşüncəmizdə Heydər Əliyev siyasi irsinə yeni formada qayıdışı dəstəkləməklə, o istiqamətdə silsilə tədbirlərin həyata keçirilməsi, gənc nəsil üçün innovativ düşüncə, inac, öyrətmə formatlarının, fikir texnologiyalarının fərqli modellərini ortaya qoymaq, yeni kitab, e-nəşrlər,

videofilm hazırlamaq, real/virtual formatda "Heydər Əliyev İrsi" – gənclərin innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual beyin məhsullarının yaradılması da nəzərdə tutulur.

Milli-mədəni, siyasi-ideoloji düşüncəmizdə Heydər Əliyev siyasi irsinə yeni formada qayıdışı dəstəkləməklə, o istiqamətdə silsilə tədbirlərin həyata keçirilməsi, gənc nəsil üçün milli düşüncə, inam, öyrətmə formatları, fikir texnologiyalarının fərqli modellərini ortaya qoymaq, yeni kitab, e-nəşrlər, videofilm hazırlamaqla, real/virtual formatda "Heydər Əliyev İrsi" – gənclərin innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual beyin mərkəzi, resursu yaradılması.

Ulu Öndərin ölməz irsinin tarixi proseslərin məntiqi nəticəsi kimi qabardılacaq, milli-mədəni dəyər qazanmış ictimai-mədəni, sosial-siyasi, humanitar-estetik sərvət olaraq İnternet, yeni media və sosial şəbəkələrdə, elektron və virtual KİV-də, xüsusən də yeni nəsilin gənc nümayəndələri arasında tanıdılacaq. Lənkəranda yerləşən 2 orta məktəbdə "Heydər Əliyev İrsi" – gənclər üçün innovativ-kreativ, ideoloji-mənəvi, kulturoloji-intellektual real/virtual formatlı beyin Mərkəzi, resurs yaradılacaq. Hər iki məktəb üçün müxtəlif mövzulu yeni kitablardan ibarət 100 nüsxəlik mini-kitabxana ilə təmin ediləcək.

Ulu Öndərin dövlətçilik irsinə həsr olunmuş, "Heydər Əliyev dövlətçilik irsi" adlı toplu və onun elektron versiyası nəşr ediləcək, təqdimatı keçiriləcək, yayımlanacaq, kitabxanalara, məktəblərə paylanılacaq. Sosial şəbəkələrdə layihənin və modelin ayrıca səhifə hazırlanacaq, ardıcıl zənginləşdiriləcək.

Elektron kitabxanada ayrıca alt-bölüm hazırlanacaq, orada hazırlanacaq e-nəşrlər yayımlanacaq. "Heydər Əliyev dövlətçilik İrsi" mövzusuna həsr olunmuş 6 yeni e-nəşr hazırlanaraq gənc nəslin istifadəsinə veriləcək. İnternetdə və sosial şəbəkələrdə bu rəqəmsal nəşrlərin virtual sərgisi təşkil olunacaq.

İnternet resurslarında – saytlarda, sosial şəbəkələrdə, videoplatformalarda, e-kitabxanada mütəmadi olaraq materiallar yerləşdiriləcək, yayımlanacaq, e-aksiya keçiriləcək. Layihənin əsas hədəf qrupları yeni nəsil nümayəndələri, gənclər, müxtəlif yaşda, cinsdə, fərqli intellektual səviyyədə olan ictimai-sosial aktivistlar, yaradıcı kreativlər olacaq.

Gənc nəsil aktivistlər müxtəlif formatlı fəaliyyət növlərinə cəlb oluncaq, layihənin sonunda innovativ hərəkatın vahid üzvləri kimi bir platformada birləşəcəklər. YYSİB-nin Azərbaycan Respublikasının Gənclər Fondu vasitəsilə həyata keçirdiyi bu yeni kreativ layihəsi də, əvvəllər rallaşdırılanlar kimi, estetik-kulturoloji vasitələrlə ideoloji-mənəvi neo-

maarifləndirməni genişləndirəcək, Ulu Öndərin ölməz irsinin gənc nəsillərə çatdırılmasına xidmət edəcək.

**Hidayət - Ayxan Əbilli**

YYSİB-nin sədr müavini, İctimaiyyətlə Əlaqələr,

Analitik-İnformasiya Bölümü rəhbəri